# İctimai-siyasi sabitlik və iqtisadi inkişaf fonunda aqrar təhsil

Son illər Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi istiqamətində atılan səmərəli addımlardan biri də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 12 yanvar 2015-ci il tarixli sərəncamına əsasən 2015-ci ilin Azərbaycan Respublikasında "Kənd təsərrüfatı ili" elan edilməsidir. Kənd təsərrüfatının inkişafına dövlət dəstəyinin gücləndirilməsi, yeni çağırışlara uyğun sahə üzrə strateji hədəflərin və institusional dəyişikliklərin müəyyən edilməsi sahənin keyfiyyətcə yeni mərhələyə keçməsinin təməlini qoymuşdur.

Şəmkirçay və Taxtakörpü su anbarlarının istismara verilməsi isə suvarılan yeni torpaq sahələrinin əkin dövriyyəsinə cəlb edilməsinə və torpaqların münbitliyinin qorunmasına şərait yaradır.

"Kənd təsərrüfatı ili" elan edilməsi sərəncamından irəli gələn məsələlərdən biri də kənd təsərrüfatı sahəsində elmi təminatın və kadr hazırlığının yaxşılaşdırılmasıdır. Bu istiqamətdə Azərbaycan Dövlət Aqrar Universitetinin tələbələrinin yaşayış şəraitinin yaxşılaşdırılması üçün yataqxanaların tikintisi, tələbələrin sosial müdafiəsinin gücləndirilməsi və məzunların işlə təminatı səviyyəsinin yüksəldilməsi üçün tədbirlərin görülməsi nəzərdə tutulur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında ölkə başçısı bir daha diqqəti bəzi vacib məqamlara çəkdi: *"Kənd təsərrüfatı 7 faizdən çox artmışdır, daha doğrusu, 7,3 faiz. Bu da son illər ərzində ən yüksək artım tempidir. Bu da görülən işlərin nəticəsində mümkün olmuşdur.*

*Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır və heç bir sosial proqram heç vaxt ixtisar olunmayacaq, əksinə, biz yeni təşəbbüslər haqqında fikirləşirik.*

*Bu il Tovuzçay su anbarının tikintisi başa çatıb. Bu da çox önəmli layihədir. İyirmi min hektar torpaqda suvarma yaxşılaşdırılacaq və 300 hektarda yeni torpaq sahələri suvarılacaqdır.*

*Bütün lazımi tədbirlər görülüb struktur islahatları aparılıb, müvafiq sərəncamlar imzalanıb. Biz öz potensialımızdan maksimum dərəcədə istifadə etməliyik və əhalimizi 100 faiz səviyyəsində ərzaq məhsulları ilə özümüz təmin etməliyik. Biz buna yaxınlaşırıq. Biz öz daxili tələbatımızı ödəyəndən sonra ixrac bazarlarına çıxmalıyıq. İxrac bazarlarına çıxmaq üçün ilk növbədə məhsul rəqabətqabiliyyətli olmalıdır. Digər tərəfdən, o bazarlarda bizim logistik imkanlarımız olmalıdır.*

*Azərbaycanda çox güclü sahibkarlar sinfi yaranmaqdadır. Çox təəssüflər olsun ki, bəzən onların fəaliyyətinə əsassız müdaxilələr olunur. Mən dövlət qurumlarına çox ciddi göstəriş verirəm ki, sahibkarlara heç bir əsassız tələb irəli sürülməməlidir. Ölkəmiz sahibkarlıq hesabına inkişaf edəcək".*

Azərbaycan iqtisadiyyatı iştirakçılarının 86 faizini özəl sektor təşkil edir ki, bu da ölkə rəhbərliyinin liberal iqtisadiyyata sadiqliyinə dəlalət edir.

XXI əsrin ilk onilliyində siyasi və iqtisadi sahələrdə Azərbaycanın potensialının güclənməsi əhalinin rifahının yüksəlməsinin əsas şərtlərindən biri olmuşdur. Qloballaşmaya istiqamət götürən müasir dövlətlər qarşısında duran əsas vəzifələr beynəlxalq rəqabətə uyğunlaşmaq bacarığı, ölkənin uğurlu və davamlı inkişafıdır. Yüksək səviyyədə inkişaf etmiş ölkələrin rəqabət üstünlüyü başlıca olaraq yüksək təhsil amili ilə müəyyənləşən insan potensialının inkişafı ilə bağlıdır. İndiki zamanda ölkəmizin iqtisadi inkişafının təminatı məhz bu sahə ilə əlaqəlidir. Hazırda ölkəmizdə bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də sürətli dəyişikliklər baş verir. Aktual məsələlərdən biri də indiki dövrdə universitetlərdə innovativ ideyaların tətbiqi və beynəlxalq rəqabətədavamlılıq yaratmaqdır. Bunu nəzərə alan dövlətimiz dünyanın bir çox nüfuzlu ölkələrində olduğu kimi, ali təhsil sahəsinə də diqqəti daim artırır. Müasir dünyada təhsilin rolu artmaqdadır. "Yüksək əyarlı" gələcəyə yalnız o ölkələr nail olacaqlar ki, həmin dövlətin və ictimai təsisatların birgə səyləri təhsilə yeni yanaşmanın formalaşmasına gətirib çıxaracaq.

Qloballaşan dünyada layiqli yer tutmaq istəyən hər bir cəmiyyətin təhsildə keyfiyyətcə tamamilə yeni bir səviyyəyə çıxması labüddür. Ancaq unudulmamalıdır ki, forma baxımından beynəlmiləl, məzmun baxımından milli səciyyə daşıyan təhsil standartlarının tətbiq edilməsi vacib məqamlardandır.

Təhsil sahəsində inteqrasiya öz növbəsində Azərbaycanda verilmiş diplomların Avropa məkanında tanınmasına və qəbul edilməsinə imkan verməlidir. Qeyd etmək lazımdır ki, ölkə universitetləri müasirləşmə və özünün inkişafa qədəm qoyma dövrünü yaşayır. Bu ali təhsil ocaqlarından biri də Azərbaycan Dövlət Aqrar Universitetidir. Təhsil, elmi-tədqiqat, mədəni fəaliyyətləri beynəlxalq aləmdə inkişaf etdirmək və əcnəbi tələbələri cəlb etmək, aqrar sahədə beynəlxalq nümunəvi universitetə çevrilmək, dünya və Avropa təhsil sisteminə inteqrasiya, təhsilin Boloniya prosesinə qoşulması ilə əlaqədar qabaqcıl ölkələrin təcrübələrini öyrənərək beynəlxalq standartlara uyğun kadr hazırlığı, tədris-metodiki təminat və elmi tədqiqat işləri sahəsində beynəlxalq əməkdaşlıq imkanlarının yaradılmasını özünə strategiya seçən universitet son iki ildə inanılmaz uğurlara imza atıb. Yeni maddi-texniki baza, tədrisin keyfiyyəti, beynəlxalq əlaqələr, yeni və müasir tələbə mühiti,





şəffaflıq, müəllim-professor heyətinin maddi və sosial rifahı və s. bu kimi istiqamətlər universitet rəhbərliyinin sistemli fəaliyyətinin əsasını təşkil edir. Universitetin bazasında müasir tələblərə cavab verən 2 yataqxana kompleksi tikilməkdədir. Hər yataqxanada 630 nəfər (cəmi 1260 nəfər) tələbənin yerləşdirilməsi nəzərdə tutulur, otaqların hamısı 2 nəfərlikdir. Yataqxanalarda tələbələrin təhsili, istirahəti, idman və məişətləri ilə bağlı bütün məsələlərin həlli nəzərdə tutulub. Universitetin əsas tədris korpuslarının yerləşdiyi ərazidə yataqxanaların istifadəyə verilməsi müasir standartlara cavab verən kampus sisteminin formalaşdırılmasına, habelə beynəlxalq layihələr çərçivəsində xarici ölkələrlə müəllim-tələbə mübadiləsinə geniş imkanlar yaradacaq.

Respublikamızda aqrar islahatların həyata keçirilməsi və torpaq üzərində özəl torpaq mülkiyyətinin yaranması torpaq ehtiyatlarının qorunmasında bir çox çətinliklər yaratmışdır. Sistemli becərmə və mühafizə tədbirlərinin (drenaj-kollektor şəbəkəsinin işlək hala salınması, suvarma qaydalarına əməl edilməsi və s.), demək olar ki, tətbiq edilməməsi suvarılan torpaqlarda deqradasiyanı artırmışdır.

Digər tərəfdən, deqradasiyaya səbəb kənd təsərrüfatı ilə məşğul olan əkinçi və fermerlərin düzgün aqrotexniki qaydalara riayət etməməsi ilə yanaşı, həmçinin təbii amillərdir. İndi deqradasiya ilə mübarizə ilk növbədə torpaq mülkiyyətçilərinin üzərinə düşür və bütün bunların həyata keçirilməsi üçün torpaq istifadəçiləri torpağın mühafizə yollarını bilməklə yanaşı, həm də ondan istifadə və onu becərmək qaydalarını da öyrənməlidirlər. Bu baxımdan hazırda torpaq mülkiyyətçilərinin minimum biliklərini bərpa etmək üçün ən azından onların sertifikatlaşdırılmasına ehtiyac var. Həmçinin, torpaq istifadəçiləri torpaqdan düzgün istifadə etmədikləri halda qanunvericilik çərçivəsində onların tənzimlənməsinə ehtiyac vardır. Bu baxımdan İnzibati Xətalar Məcəlləsi ilə Torpaq Məcəlləsinə müvafiq dəyişiklik edilməlidir. Müasir dövrdə mövcud intellektual potensialının zənginləşdirilməsi ehtiyacı xarici ölkələrdə də kadr hazırlığı məsələsini aktuallaşdırıb. Azərbaycanlı gənclərin ölkə üçün zəruri ixtisaslar üzrə xaricdə təhsil almasını və ölkənin inkişafında yaxından iştirakını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidenti tərəfindən "Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil almasına dair Dövlət Proqramı" qəbul olunub. Təəssüflə qeyd etməliyik ki, bu gün Dövlət Proqramından kənar bilik səviyyəsi aşağı olan gənclər də bəzi xarici ölkə universitetlərinə yol tapırlar. Özü də imtahansız: qəbul təkcə attestatla aparılır. Əvvəllər Çexiya, Birləşmiş Ərəb Əmirlikləri, Polşa və digər Avropa ölkələri "universitetlərinə" daha çox qəbul aparılırdısa, indi üstünlük Ukrayna və Türkiyəyə məxsusdur. Sonrakı yerlərdə isə Gürcüstan və Moskva "ali məktəbləri" dayanır. Bəzən Ukrayna və Türkiyə ilə yanaşı, Çin, Belarus, Litva, Çexiya və digər Avropa "universitetlərinə" də tələbə yerləşdirirlər. Bu "universitetlər" üzrə qəbul xərcləri isə bəzən 5 min avroya qədər gedib çıxır.

Türkiyənin Ali Təhsil Təşkilatının (Yükseköğretim Kurulu Başkanlığı - YÖK) məlumatına görə, 2014-2015-ci təhsil ilində burada 54 min 313 xarici tələbə təhsil alıb. Onların sırasında Azərbaycan vətəndaşları (8 min 113 nəfər və ya 15%) üstünlük təşkil edib.

Türkiyədəki univetsitetlərin illik təhsil haqları 200-1700 manat arasında dəyişir. Tibb fakültələrinin illik təhsil haqları isə 500-2500 manat arasındadır. Yataq xərcləri aylıq 80-150 manatdır.

"Ukraynada Təhsil"in illik təhsil haqqı isə fakültələrə görə dəyişir. Minimal 1700, maksimal məbləğ isə 2500 dollardır. Tələbə yataqxanası əlavə ödənişlidir, illik 500-600 dollar. Əlavə olaraq qəbul xərci də var ki, 1700 manat təşkil edir.

Apardığımız hesablamalar və gəldiyimiz qənaət belə bir fikri söyləməyə əsas verir ki, bu "xaricdə təhsil" kampaniyaları çərçivəsində milyonlarla vəsait kənara çıxır, ölkəmizə və onun vətəndaşlarına həm maddi, həm də mənəvi zərbə vururlar. Bu kimi məsələlər ölkəmizin, millətimizin imicinə çox böyük mənfi təsir göstərir. Təhsil almaq yox, daha çox xoş olmayan niyyətlər və digər həvəslər üçün gənclər bu fürsətdən bolluca yararlana bilirlər. Zərbə isə ölkəmizə, onun xaricdəki imicinə dəyir.

Bu baxımdan müvafiq təşkilatlar ölkəmizdə bu kateqoriyadan olan gənclərin (topladıqları bal 0-100 arası) təhsil almaları üçün lazımi tədbir görməli və bu axının qarşısı alınmalıdır.

Ölkəmizdə demokratik cəmiyyətin və bazar iqtisadiyyatının bərqərar olduğu şəraitdə yüksək savada və geniş dünyagörüşünə malik olan, müasir texnologiyalardan istifadə etməyi bacaran peşəkar mütəxəssis və menecerlərə tələbat artır. Buna görə də gənclərimiz mükəmməl təhsil almaq və biliklərə dərindən yiyələnmək üçün daha inadla çalışmalıdırlar. Ümid edirik ki, aparılacaq müzakirələr, qəbul olunacaq qərarlar və atılacaq hər bir addım qarşıdakı dövr üçün mütəxəssislərin hazırlanmasına əhəmiyyətli töhfə verəcəkdir. Ölkəmizin digər ali məktəbləri kimi 85 ildən artıq şərəfli tarixi olan Azərbaycan Dövlət Aqrar Universiteti də qeyri-neft sektorunda prioritet sahələrdən biri olan aqrar sektor üçün mütəxəssislərin hazırlanmasında bütün səylərini səfərbər edəcəkdir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev hələ 1980-ci ildə universiteti "Şərəf nişanı ordeni" ilə təltif edərkən demişdir ki, Azərbaycan Kənd Təsərrüfatı İnstitutu nəinki yüksək ixtisaslı kadrlar hazırlamalı, həm də respublikada kənd təsərrüfatının inkişaf etdirmək sahəsində elmi tədqiqatların mühüm mərkəzi olmalıdır. Keçən əsrdə müəyyən olunmuş bu konsepsiyanın uğurla davam etdirilməsinə dəstək verməmək hər bir azərbaycanlının borcudur.

Hazırda Azərbaycan iqtisadiyyatda dövlət və özəl sektorun paritetinə üstünlük verir, çünki bu *yanaşma daha səmərəlidir və 20* aparıcı sənaye dövləti liderlərinin görüşündə məhz bu yanaşma nümayiş olunub. Bu gerçəkdən bir "Azərbaycan Modeli"dir. Əminliklə qeyd etməliyik ki, ölkəmizdə demokratik və açıq cəmiyyət yaradılması, siyasi plüraizmin inkişafı istiqamətlərində cənab Prezidentin səyləri öz nəticəsini verməkdədir. İşğal altında olan torpaqlarımızın tezliklə geri qaytarılması istiqamətində aparılan məqsədyönlü tədbirlər çox yaxın zamanda bəhrəsini verəcəkdir. Milli birliyimiz və siyasi-iqtisadi potensialımız ölkəmizə qarşı qərəzli münasibətləri boşa çıxaracaqdır. Qarşıdan gələn Milli Məclisə seçkilər Azərbaycanın gələcəyi və daha da inkişafı naminə mütəşəkkil, azad, şəffaf keçiriləcəkdir.

**Nəbi YUSİFOV,**
**ADAU-nun baş müəllimi,**
**Asif HƏSƏNOV,**
**Maliyyə və iqtisadi nəzəriyyə kafedrasının dosent əvəzi.**